**Bakı Musiqi Akademiyasının böyük zalında “Nəsillərin birliyi” adlı konsert təşkil edilib. Sənət ocağında hər hansı şənliyin olması təbii haldır və bu, tez-tez baş verir. “Nəsillərin birliyi” ideyası isə tələbələrlə müəllimlərin eyni vaxtda bir səhnəni paylaşmasını nəzərdə tutması ilə maraq kəsb edir.**

# Musiqili səhnədə “Nəsillərin birliyi”



Bu adlı növbəti konsertin ideya müəllifi Akademiyanın konsertmeyster ustalığı kafedrasının baş müəllimi Yuliya Kərimovadır. Layihəyə solo oxuma və opera hazırlığı kafedrasının baş müəllimləri – Əməkdar artistlər Fəridə Məmmədova və İlham Nəzərov (o, həm də sənətşünaslıq üzrə fəlsəfə doktorudur) ilk qoşulanlardan olublar. Akademiyanın 2 kafedrasının 3 müəlliminin 11 yetirməsi öz ustadları ilə birlikdə “Nəsillərin birliyi” silsiləsinin təməlini qoyublar. Onlardan biri – Ramal İbişov T.Quliyev adına 12 nömrəli musiqi məktəbinin 10-cu sinif şagirdi, qalan 10 nəfər isə musiqi akademiyasının tələbəsidir).

Konsertdə akademiyanın tələbələri G.F.Hendelin, V.A.Motsartın, F.Şubertin, İ.S.Baxın, S.A.Küinin, E.Qriqin, A.Rubinşteynin, G.Gerşvinin, G.Abdullazadənin opera və oratoriyalarından ariyaları, romansları ifa ediblər. Ramal İbişov, Məryəm Vəliyeva, Nuray İsmayılova, İsmayıl Əsədli, Nargül Aslanova, Aysun Mahmudzadə, Ülkər Rüstəmli, Gültəkin Məmmədova, Kənan Rəhmanzadə, Emiliya Hüseynzadə və Süsən Abasovadan sonra səhnəyə müəllimlər çıxıblar.

Əməkdar artistlər Fəridə Məmmədova və İlham Nəzərov Yuliya Kərimovanın müşayiəti ilə çıxış ediblər. Müəllimlər L.Van Bethovenin, M.Balakirevin, S.Raxmaninovun və N.Rimski-Korsakovun yaradıcılıqlarından seçmələri təqdim ediblər.

**“Nəsillərin birliyi” konsertindən sonra Azərbaycanın Əməkdar artisti Fəridə Məmmədova təəssüratını “XQ” ilə bölüşdü:**

– Yuliya xanım “Nəsillərin birliyi” konsert ideyasını bizimlə bölüşəndə çox həvəslə razılaşdıq. Həm də Yuliya xanım istəyirdi ki, vokal sənətinə yiyələnən tələbələr onun tələbələri olan gələcək konsertmeysterlərin müşayiəti ilə çıxış etsinlər, konsertin finalında isə biz müəllimlər çıxış edək. Həqiqətən də, çox maraqlı idi: əvvəlcə tələbələrimizdən ötrü həyəcan keçirdik, sonra da öz ifalarımız oldu. Deyim ki, konsert çox uğurla keçdi. Akademiyanın rəhbərliyi, müəllim və tələbələri ilə yanaşı, jurnalistlər, musiqisevərlər, xarici qonaqlar bizi diqqətlə dinlədilər. Yaxşı olardı ki, bu təşəbbüs bir konsertlə bitməsin. Solo oxuma və vokal hazırlığı kafedrasının digər müəllimləri, həmçinin, başqa kafedralarda çalışan həmkarlarımız da təşəbbüsə qoşulsalar, şad olarıq. Belə konsertlər həm müəllim və tələbələri daha da yaxınlaşdırır, həm də gənc ifaçılar hələ tələbə ikən hansı konsertmeyster ilə daha yaxşı anlaşacaqlarını hiss edirlər ki, bu da onların gələcək yaradıcı fəaliyyətləri üçün uğurlu başlanğıc ola bilər.

İnanırıq ki, “Nəsillərin birliyi” kimi yaradıcılıq vəhdətləri növbəti sənət uğurlarına vəsilə olacaq.

***Gülcahan MİRMƏMMƏD***